**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR DÖVRDƏ AİLƏ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ VƏ TƏŞKİLİ YOLLARI

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

İddiaçı: **Solmaz Rafiq qızı Cabbarova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2021**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

**Rəsmi opponentlər:** Pedaqoji elmlər doktoru, professor,
əməkdar müəllim
**Rüfət Lətif oğlu Hüseynzadə**

Pedaqogika üzrə fəlsəfə doktoru
**Lamiə Nizami qızı Hacımuradova**

Pedaqogika üzrə fəlsəfə doktoru
**Vəfa Məsim qızı Çıraqova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: Pedaqoji elmlər doktoru, professor
_________ **İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının
elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent
_________ **Vahid Məmməd oğlu Rzayev**

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor
_________ **Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** İnsan cəmiyyətinin çoxəsrlik tarixində yetişən nəslin tərbiyəsi kimi mühüm və olduqca mürəkkəb bir funksiyanın yerinə yetirilməsi işi birmənalı olaraq ailə və cəmiyyətin üzərinə düşür. Uzun əsrlər boyu gənc nəslin həyata hazırlanmasında ailə tərbiyəsinə, yoxsa ictimai tərbiyəyə üstünlük verilməsi mübahisə mövzusu olmuşdur. Bütün hallarda ailənin uşaqların tərbiyəsində xüsusi əhəmiyyət daşıyan yeri və rolunu diqqətdə saxlamaq, bu sahənin daha da inkişaf etdirilməsi qayğısına qalmaq vacibdir.

Ailə insanlığın "təkrar istehsal" sahəsi, insan nəslinin mühafizəsini təşkil edə bilən qurumdur. Elmdə ailəyə sivilizasiyanın, mədəni və mənəvi dəyərlərin beşiyi, inkişaf amili kimi baxılır. Uşaqda yüksək şəxsi keyfiyyətlərin formalaşdırılması, onun şəxsiyyət kimi ahəngdar inkişafı üçün pedaqoji şərtlərin həyata keçirilməsi prosesi məktəb və ictimaiyyətin təsirləri ilə yanaşı, valideynlərin və ailənin digər üzvlərinin məqsədyönlü təsirlərini də tələb edir, vacib sayır.

Ailə tərbiyəsi böyüklərin uşaqları fiziki, əxlaqi və mənəvi cəhətdən yetişdirməsi, onların aktif həyat fəaliyyətindən ötrü bacarıq və vərdişlər qazanması, beləliklə, uşaqların şəxsiyyət kimi formalaşması üçün göstərilən təsirlərin məcmusudur. Ailə uşağın əmək tərbiyəsi, müəyyən peşə və sənətə, yüksək ixtisaslaşmaya sahiblənməsi işində də əhəmiyyətli rol oynayır. Məhz bu baxımdan ailə cəmiyyətin məzmununun formalaşmasına təsir göstərir. Ailə və cəmiyyət yetişən nəslin tərbiyəsi işində bir-birini tamamlayır, qarşılıqlı əlaqə və münasibətlərdə olur. Ailə vətəndaş tərbiyə edir, gələcək ailəni yarada və onu qoruya biləcək insanı hazırlayır, onu ölkənin, yaşadığı və fəaliyyət göstərdiyi dövlətin qanunlarına hörmət etməyə alışdırır. Ailə həmçinin yetişən nəslin fiziki və psixi sağlamlığı qayğısına qalır, yüksək əxlaqi keyfiyyətlərə yiyələnməsinə çalışır, uşaqların intellektual inkişafına, kamil insan kimi formalaşmasına səy göstərir. Görkəmli rus pedaqoqu A.S.Makarenko insan şəxsiyyətinin formalaşdırılmasında ailə tərbiyəsinin rolunu belə qiymətləndirmişdir: "*Bizim uşaqlar ölkəmizin və dünyanın vətəndaşlarıdır. Tarixi onlar yaradacaqlar. Bizim uşaqlar gələcək ana və atalardır, onlar da öz uşaqlarını tərbiyə edəcəklər. Bizim uşaqlarımız böyüyüb gözəl*

*vətəndaş, yaxşı ana və ata olmalıdırlar*."[1]

Ailədəki atmosfer uşağın yaxşı və ya pis adətlər qazanmasına, müsbət, yaxud mənfi əxlaqi keyfiyyətlərə yiyələnməsinə əsaslı təsir göstərir. Sosiallaşma formasını özündə əks etdirən ailə özünün ailədaxili münasibətləri ilə aparıcı tərbiyə imkanlarına malikdir. Bu imkanlar tədricən uşağın tərbiyəsində möhkəm iz salır. Çünki uşaq ailədaxili sistemdə digərləri ilə qarşılıqlı əlaqə və təsirlərdə olan bir fərddir.

Bütün bunlardan başqa, ailə özündə təsərrüfat-iqtisadi birliyi, hüquqi, əxlaqi, emosional-psixoloji əlaqələri də ehtiva edir. Digər tərəfdən, cəmiyyətin müasir inkişaf səviyyəsi böyüyən nəslin tərbiyəsi işində, xüsusən ailə tərbiyəsində bir sıra problemlər yaratmışdır.

İndiki halda Azərbaycan ailəsində vəziyyət necədir? Onun pedaqoji əsasları nədən ibarətdir? Tarixən formalaşmış mütərəqqi ənənələr qorunub saxlanılmalıdırmı? Ailə institutu və ailə tərbiyəsi işində obyektiv və subyektiv amillər nədən ibarətdir? Müasir ailə necə olmalıdır? Uşaqların tərbiyəsində xalqın adət-ənənələrindən, milli-mənəvi dəyərlərindən istifadənin vəziyyəti qane edicidirmi? Bu sahədə yaranmış problemlərin pedaqoji əsasları nədən ibarətdir? və s. bu kimi suallara cavab axtarışları vacibdir. Çünki normal qəbul edib-etməməyimizdən aslı olmayaraq bu gün ailə modelində aşınmalar baş verir ki, bu da ailə tərbiyəsi işinin pedaqoji əsaslarını öyrənməyi, ailə başçılarına və ailənin digər üzvlərinə pedaqojiköməklik göstərməyi aktuallaşdırır.

Müasir ailənin problemləri cəmiyyətin problemləridir. Çünki kiçik dövlət kimi ailə yazılmamış qanunları, əxlaqi anlayışları, zövqü və idealı ilə dövlətin formalaşdırdığı milli ideologiyaya, ümummilli mənafelərə xidmət edir. Bu cəhət də müasir ailədə tərbiyə işinin tənzimlənməsinə və onun pedaqoji əsaslarına yeni yanaşmalar tələb edir. Mövzunun aktuallığı həm də bundan irəli gəlir.

Qeyd edək ki, ailə tərbiyəsinin pedaqoji məzmunu bu və ya digər şəkildə qədim dövrlərdən indiyə qədər mütəfəkkir-pedaqoqları düşündürmüş, problemlə bağlı maraqlı fikir və mülahizələr söylənilmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarında Azərbaycan

---

[1]Abbasov A.N. Milli əxlaq və ailə etikası. Orta ixtisas məktəbləri üçün dərslik, Bakı: Mütərcim, 2010, s. 277

xalqının ailə tərbiyəsinə aid etnik düşüncəsi, ailə-övlad münasibətləri unikal bir şəkildə öz ifadəsini tapmışdır. Azərbaycan folklorunun digər janrları da Azərbaycan ailəsinin spesifik xüsusiyyətləri və uşaqların tərbiyəsinin məzmunu və metodları haqqında etnopedaqoji materiallarla zəngindir.

Nizami, Füzuli, Xaqani, Əvhədi kimi mütəfəkkir şairlərin yaradıcılığında, xüsusilə Nəsrəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində Azərbaycan ailəsində uşaqların tərbiyəsi ilə bağlı fikirlər əhəmiyyətli yer tutmuşdur.

XIX əsr və XX əsr Azərbaycan maarifçiləri, pedaqoqları uşaqların tərbiyəsini yeni dövrün tələbləri əsasında qurmaq uğrunda inadla mübarizə aparmışlar. Sovetlər dönəmində və müstəqillik şəraitində ailə tərbiyəsi problemi konkret elmi tədqiqatların mövzusu olmuşdur.

Ailə tərbiyəsi haqqında dissertasiyalar da yazılmışdır. Professor Akif Abbasovun elmlər doktoru üzrə dissertasiyası, N.Ağabəyova, S.Cəmilzadə, İ.Xəlilov, N.Yusifova, S.Həsənli və başqalarının fəlsəfə doktoru dissertasiyaları ailə tərbiyəsi ilə bilavasitə bağlıdır.[2] Lakin göstərilən tədqiqatların bir çoxunda ailə tərbiyəsinin xüsusiyyətlərinə səthi yanaşılmış, bəzilərində isə ailə tərbiyəsi ictimai tərbiyənin kölgəsində qalmışdır. Digər tərəfdən, müasir dövrün sürətli inkişafı, mədəniyyətlərin və əxlaqi sistemlərin yaxınlaşması və toqquşması ailə institutunun da müəyyən sarsıntılara uğramasına səbəb olmuşdur. Müasir ailə tam mənada az bir müddət əvvəlki milli ailə deyildir. Bu baxımdan ailə tərbiyəsinin xüsusiyyətləri, problemləri bu gün fərqli keyfiyyətlərdə özünü göstərir. Ona görə də təşəbbüs göstərdiyimiz

---

[2] Bax: Abbasov A.N. Məktiblilәri ailə həyatına hazırlamağın nəzəriyyə və təcrübəsi. Ped. elm. dok...dis. Bakı, AETPEİ, 1995; Ağabəyova N. Məişət əməyi üzrə şagirdləri istiqamətləndirməkdə məktəb, ailə və ictimaiyyətin əlbir işi [ V. IX siniflər]: Ped. üzrə fəl.dok ... dis. Bakı, APİ, 1989; Cəmilzadə S.V. – VII sinif şagirdlərinin ailədə peşəyönlü tərbiyəsi: Ped. üzrə fəl.dok ... dis. Bakı, APİ, 1989; İmanov A. Məktəblilərin ordu sırasına hazırlanmasında məktəblə ailənin əlbir işinin məzmunu və formaları: Ped.üzrə fəl. dok ... dis. Bakı: APİ, 1993; Yusifova N. Yeniyetmə yaşı dövründə ailədə uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin imkanları və yolları: Ped.üzrə fəl. dok ... dis. Naxçıvan, 2006; Həsənova S. Ailə tərbiyəsinin səmərəli təşkilində etnopedaqoji materiallardan istifadənin imkan və yolları. Ped.üzrə fəl.dok...dis, Naxçıvan, 2005

problemin araşdırılması məqsədilə dissertasiyanın mövzusunu "Müasir dövrdə ailə tərbiyəsinin xüsusiyyətləri və təşkili yolları" kimi formalaşdırmağı lazım bildik.

**Tədqiqatın obyekti** müasir Azərbaycan ailəsidir.

**Tədqiqatın predmeti** müasir dövrdə ailə tərbiyəsinin problemləri və səmərəli təşkili məsələləridir.

**Tədqiqatın məqsədi** Azərbaycan ailəsində tərbiyə işinin müasir xüsusiyyətlərini və problemlərini aşkar etmək, ailə tərbiyəsinin səmərəli təşkili yollarını aydınlaşdırmaq və ondan müasir şəraitdə düzgün istifadə imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Mövzu ilə əlaqədar olaraq qarşıya qoyulan məqsədin həlli üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Ailə və onun pedaqoji mahiyyəti haqqında pedaqoji fikir tarixini, müasir elmi-nəzəri yanaşmaları təhlil edib, tədqiq olunan problem baxımından ümumiləşdirmək;
- Yetişən nəslin tərbiyəsi işində ailə tərbiyəsinin ümumi və spesifik xüsusiyyətlərini şərh etmək;
- Azərbaycan ailəsinin mənəvi keyfiyyətlərini üzə çıxarmaq, onun genesizini və inkişaf xüsusiyyətlərini aydınlaşdırmaq;
- Ailə tərbiyəsinə müasir dövrdə təsir edən sosial və pedaqoji problemləri müəyyənləşdirmək;
- Ailə tərbiyəsində xalq pedaqogikasının imkanlarından istifadənin əhəmiyyətini və perspektivlərini aydınlaşdırmaq;
- Uşaqların tərbiyəsində valideyn nüfuz və nümunəsinin rolunu aşkar etmək;
- Uşaqların tərbiyəsində ailə münasibətlərinin düzgün təşkilinin yüksək pedaqoji təsir vasitəsi olduğunu göstərmək.

**Tədqiqatın əsas fərziyyəsi.** Ailə tərbiyəsi haqqında pedaqoji fikir tarixi cəmiyyətin dövrümüzdəki tələbləri baxımından öyrənilib istifadə edilsə, ailənin və ailə tərbiyəsinin müasir problemlərinin elmi təhlili aparılsa, tərbiyə işində ailə münasibətlərinin düzgün təşkili yollarından, xalq pedaqogikası nümunələrindən istifadə edilsə ailə tərbiyəsinin səmərəliliyi artar.

Tədqiqat zamanı müşahidə, müsahibə, intervyü, sınaq - yoxlama, pedaqoji eksperiment, anket sorğusu və s. metodlardan

istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyini** aşağıdakı cəhətlər şərtləndirir:

a) müasir ailənin xüsusiyyətləri və onun tərbiyə imkanlarının üzə çıxarılmasına səy göstərilir və bu əsasda ailə tərbiyəsinin xarakteristikası verilir;

b) Azərbaycan xalqının pedaqoji mədəniyyətində ailə tərbiyəsinin yeri və rolu müəyyənləşdirilir;

c) müasir ailə tərbiyəsinin sosial və pedaqoji problemləri əhatəli şəkildə araşdırılır;

d) ailə tərbiyəsinin təşkili məsələsinə yeni və orijinal baxış nümayiş etdirilməsinə səy göstərilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** aşağıdakı cəhətlərlə bağlıdır:

1. Tədqiqat ailə anlayışına müasir parametrlər və ölçülərlə baxmağa imkan verməklə pedaqoji nəzəriyyəni zənginləşdirməkdədir.

2. Ailə tərbiyəsinin təbiəti − xüsusiyyətləri obyektiv olaraq əsaslandırılır, bu istiqamətdə pedaqoji konsepsiyalar ümumiləşdirilir, qanunauyğunluqlar aşkar edilir.

3. Tədqiqatın əsas müddəa və alınmış nəticələrinin ailə tərbiyəsilə bağlı sonrakı pedaqoji tədqiqatlara tətbiqi imkanları yaranır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada müasir Azərbaycan ailəsində uşaqların tərbiyəsi üzrə işin səmərəsini yüksəltmək üçün metodik tövsiyyələr hazırlanmışdır ki, bu da ailə tərbiyəsinin təşkilində yüksək səmərə verə bilər. Valideynlər uşaqların tərbiyəsi işində dissertasiyanın müddəa və nəticələrindən faydalana bilər ki, bu da tədqiqatın təcrübi əhəmiyyətini artırır. Digər tərəfdən, dissertasiyada ailə tərbiyəsi ilə bağlı klassik pedaqogikadakı fikir və mülahizələrin, problemlə bağlı tədqiqatların öyrənilib ümumiləşdirilməsi, müasir ailədə uşaqların tərbiyəsinin xüsusiyyətlərinə aid alınan nəticələrdən ali məktəblərin "Ümumi pedaqogika", "Ailə pedaqogikası" fənlərinin tədrisində istifadə olunması fayda verər.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1.Böyüyən nəslin tərbiyə işinin müvəffəqiyyətlə nəticələnməsinin təmin olunmasında Azərbaycan ailəsinin tarixi-milli xüsusiyyətlərini öyrənib istifadə etməyin əhəmiyyəti böyükdür.

2. Müasir dövrdə ailə tərbiyəsinin sosial və pedaqoji problemlərini aşkara çıxarıb onların həlli yollarını müəyyənləşdirməklə tərbiyə işini düzgün istiqamətdə təşkil etmək olar.

3. Ailə üzvləri arasında münasibətlərin pedaqoji baxımdan düzgün nizamlanması, gündəlik tərbiyə prosesində xalq pedaqogikası prinsip və üsullarının tətbiqi, valideyn nüfuzunun təbii imkanlarından istifadə ailə tərbiyəsinin səmərəliliyini artırmağın əhəmiyyətli yollarıdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universiteti Elmi şurasının 21 yanvar 2013 – cü il tarixli (protokol № 04) iclasında təsdiq olunmuşdur. İş "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyayanın nəticələri barədə biri xaricdə olmaqla 8 elmi konfransda məruzələr edilmiş, tədqiqat mövzusu ilə bağlı ikisi xaricdə olmaqla 12 elmi məqalə Azərbaycan Respublikasının dissertasiyanın əsas nəticələrinin dərc olunması tövsiyyə edilən elmi nəşrlərdə çap olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

I fəsil 98574 işarə, II fəsil 53283 işarə, III fəsil 90955 işarə, dissertasiyanın ümumi həcmi 262501 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"**Giriş**"də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri diqqətə çəkilmiş, işin fərziyyəsi, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılmış müddəalar, dissertasiyanın aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiyanın "**Müasir tərbiyə sistemində ailənin yeri və rolu**" adlı I fəsli 3 yarımfəsildən ibarətdir. " **1.1. Ailə tərbiyəsi haqqında pedaqoji fikrin qısa xülasəsi**" yarımfəslində göstərilir ki, ailə özünün sosial mahiyyəti ilə insan cəmiyyətinin yaranışına bağlıdır.

“Kitabi-Dədə Qorqud” dastanlarında xalqımızın ailə dəyərləri, valideyn – övlad məhəbbəti, oğuz ərlərinin ailəyə bağlılığı və s. məsələlər haqqında maraqlı məlumatlara rast gəlirik.

Xaqani, Nizami, Nəsimi, Füzuli, M.Əhvədi və başqalarının ailə tərbiyəsinə aid fikirləri bu gün belə öz əhəmiyyətini saxlamaqdadır. Nəsrəddin Tusinin “Əxlaqi – Nasiri” əsəri cəmiyyətdə ailə, ailədaxili münasibətlər haqqında fikirlərlə zəngindir. Böyük mütəfəkkir yazmışdır: “*Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir etməklə başa salmaq yolu ilə; pul vermək, şirnikdirmək, əsil-nəsəbə aid olan şeylərlə yox*”.[3]

XIX əsr və XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan maarifçiləri ailə tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirmiş, cəmiyyətin yenilənməsində ailə münasibətlərinin düzgün qurulmasının yeri və rolunu yüksək qiymətləndirmişlər.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə qadın təhsil müəssisələrinin genişləndirilməsi, övlad tərbiyəsi sahəsində qadın – ananın məsuliyyəti və s. bu kimi məsələlər üzrə müzakirələr aparılmış, lahiyələr hazırlanıb həyata keçrilməsi işinə təşəbbüs edilmişdir.

Sovetlər dövründə ailə dəyərləri kommunist ideologiyasına uyğunlaşdırılmışdır. Bununla belə, ailə tərbiyəsinin elmi – pedaqoji əsaslarının təşəkkül tapması və inkişafı məhz bu dövrə təsadüf edir.

Tanınmış pedaqoq – alim Tələt Əfəndiyev “Valideyn uşaq haqqında nəyi bilməlidir” və “Ailədə uşağın intizam tərbiyəsi” əsərlərində ailədə uşaqların tərbiyəsi işinin yaxşılaşdırılması məqsədilə valideynlər arasında pedaqoji təbliğatın gücləndirilməsini vacib saymışdır.

Ailə tərbiyəsinə aid yazılan tədqiqatlar içərisində professorlardan Soltansəlim Axundov və Ağahüseyn Həsənovun “Ailədə uşaqların əxlaq tərbiyəsi” adlı monoqrafiyası elmi-pedaqoji mühitdə rəğbətlə qarşılanmışdır.

Professor Akif Abbasovun 2010-cu ildə çapdan çıxmış “Milli əxlaq və ailə etikası” adlı dərsliyində bütövlükdə ailə mədəniyyətinin

---

[3] Tusi Nəsrəddin. Əxlaqi – Nasiri / Tərcümə, müqəddimə və şərhlər Rəhim Sultanovundur. Bakı: Elm, 1989, s. 156

mütərəqqi ənənələrindən, ailənin tarixi inkişaf mərhələlərindən, ümumən ailənin mənəvi, psixoloji əsaslarından, ailə pedaqogikası kimi məsələlərdən bəhs olunur.

Solmaz Həsənlinin “Ailə tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları” kitabında ailə tərbiyəsində xalq adət-ənənələrindən, mənəvi dəyərlərindən istifadə edilməsi məsələlərinə toxunulmuşdur.

Pedaqoq-alimlərdən Nürəddin Kazımov, Fərahim Sadıqov, Akif Abbasov, Ləzifə Qasımova və başqalarının pedaqogika fənninə dair yazdıqları dərsliklərdə ailə tərbiyəsi məsələsinə də diqqət yetirmişdir.

Qədim Yunanıstanda da uşaqların ailə tərbiyəsi məsələlərinə xüsusi əhəmiyyət veriləsi məlumdur. Demokrit, Sokrat, Platon, Aristotel və başqaları uşağın tərbiyəsində ailənin çox mühüm rola malik olduğunu göstərmişlər.

Böyük çex pedaqoqu Y.A.Komenski “Ana qucağı məktəbi” nəzəriyyəsini hərtərəfli şəkildə işləyib hazırlamışdır. İngilis filosofu Con Look, Fransız mütəfəkkiri Jan Jak Russonun pedaqoji təlimində də ailə tərbiyəsi xüsusi yer tutmuşdur.

Müasir rus tərbiyə konsepsiyasında ailə tərbiyəsi, ailə münasibətləri ilə bağlı tədqiqatlar xüsusi yer tutur.

Bütün bunları valideynlərin öz tərbiyə imkanlarını səmərəli şəkildə reallaşdırması işində əsaslı təsir vasitəsi hesab etmək olar.

“**1.2. Ailə, onun pedaqoji mahiyyəti və funksiyaları**” yarımfəslində pedaqogika elminin ailə probleminə münasibəti təhlil olunur.

“Ailə xüsusi, mürəkkəb insani münasibətlər aləmidir”, – deyən ulu öndər Heydər Əliyev göstərirdi ki, burada bir böyük nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

Ümumi sosial-mənəvi dəyərlərə, normalara malik olan ailə pedaqogika elminin də öyrəndiyi problemdir.Çünki uşaq şəxsiyyətinin tərbiyəsi və sosiallaşması ilkin olaraq məhz ailədə başlayır. Bəli, ailənin hər bir övladı tərbiyəyə möhtacdır ki, bu da ailənin pedaqoji mahiyyətini parlaq bir şəkildə əks etdirir.

Tədqiqatlarda ailədə tərbiyə işinin bir sıra funksiyalarını

müəyyənləşdirirlər. Bu funksiyaları ümumiləşdirmiş olsaq, onların aşağıdakı üç aspektini göstərmək olar:

1. Uşaq şəxsiyyətinin formalaşdırılması, onların maraq və qabiliyyətlərinin inkişafı, toplanmış ümumsosial təcrübənin ailənin yaşlı üzvləri tərəfindən uşaqlara ötürülməsi, onların elmi dünyagörüşünün təkmilləşdirilməsi, əməyə düzgün münasibət tərbiyəsi, onların intellektinin zənginləşdirilməsi, estetik zövqlərinin yaranması və inkişafı, onların fiziki cəhətdən təkmilləşməsi üçün tərbiyəvi təsirlərin göstərilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi və sanitar - gigiyenik mədəniyyət üzrə vərdişlərin aşılanması.

2. Ailə kollektivinin hər bir üzvünə bütün həyatı boyu sistemli tərbiyəvi təsirlərin göstərilməsi.

3. Valideynlərin mütəmadi, daimi tərbiyəvi təsirləri ilə yanaşı, uşaqların fəal özünütərbiyə işinə qoşulmasının təmin edilməsi.

Ailə tərbiyəsində əxlaq tərbiyəsi xüsusi yer tutur. Ailənin mənəvi təmizliyi, yaxşı davranış normaları və qaydalarına yiyələnməsi ailə tərbiyəsinin gözəlliyini, ülviliyini əks etdirir.

Uşağın əqli tərbiyəsi də ailədən başlanır. Əqli inkişaf mütəmadi olaraq oyunlar zamanı, ünsiyyət və münasibətlərdə, ev-təsərrüfat işlərinin yerinə yetrilməsi prosesində, təşkil olunmuş asudə vaxtlarda, gəzinti və səyahətlər zamanı yaranır.

Ailə daxilində valideynlər uşağın əmək tərbiyəsinə birinci dərəcəli vəzifə kimi baxmalıdırlar. Onlar uşağın əməyə alışdırılması, əməyin insan həyatında necə böyük rola malik olması haqqında onlarda yaxşı fikir, düşüncə formalaşması qayğısına qalmalıdırlar.

Pedaqoji ədəbiyyatda ailənin "tərbiyə potensialı" anlayışına tez-tez rast gəlirik. Bu bir həqiqətdir ki, hər bir ailə az və ya çox tərbiyə imkanlarına malikdir. Bu tərbiyə imkanları ailə tərbiyəsinin nəticələrini, valideynlərdən bu imkanlardan necə, hansı şəraitdə və səviyyədə istifadə etdiyini müəyyənləşdirməyə imkan verir.

"**1.3. Azərbaycan ailəsinin xüsusiyyətləri**" yarımfəslində tarixin keşməkeşli yollarını şərəflə keçmiş Azərbaycan ailəsi üçün səciyyəvi olan böyüklərə hörmət və ehtiram, ailənin müqəddəs bir ocaq kimi qorunması, valideynlik borcunun uca tutulması, ailəyə rəhbərlikdə səmiyyətlilik, məsuliyyətlilik və s. kimi xüsusiyyətlər dəyərləndirilir.

Ulu öndər Heydər Əliyev insanın kamilləşməsi, boya– başa çatmasında ailənin rolunu məxsusi qeyd etmişdir. Dahi öndərin ailə həyatı sadəlik, təvazökarlıq, sədaqət, etibarlıq, səmimilik baxımından hər bir azərbaycanlı üçün örnəkdir.

Ailədə doğruluq, dürüstlük, səmimilik bütün ailə üzvlərinin xoşbəxtliyinin rəhnidir. Xoşbəxt ailə o deməkdir ki, burada qarşılıqlı hörmət, qarşılıqlı anlaşma, sevgi, etibar və etimad, səbirlilik, vəzifə hissi, bir-birinin qarşısında məsuliyyət və s. keyfiyyətlər uca tutulur. Ailələrimizdə əməksevərlik, digər insanlara xeyirxah münasibət ta qədim dövrlərdən zəmanəmizə qədər gəlib çıxan ailə ənənələrimizdir.

Ailə dəyərlərimizin çox mühüm xarakter cəhətlərindən biri Azərbaycan ailəsində övlad məhəbbəti psixologiyasıdır. Tədqiqatların nəticələri göstərir ki, Azərbaycan ailəsinin uzunömürlülüyünün əsas səbəblərindən biri də məhz elə bu cəhətdir.

Azərbaycan ailə dəyərlərində yaşlı nəslə– ağsaqqal babalara, ağbirçək nənələrə hörmət və qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan ailəsində atanın sözü hökm bilindiyi kimi, ananın sözünə də qeyd-şərtsiz əməl olunmuşdur.

Ailə tərbiyəsində ailə münasibətlərinin tənzimlənməsi xüsusi əhəmiyyət daşıyır. Ailə münasibətləri dedikdə ər-arvad, ata-ana, valideyn-övlad münasibətləri nəzərdə tutulur. Bu münasibətlər qarşılıqlı təsirdə, sıx vəhdətdədir.

Azərbaycanlılar öz ev– eşiyi, doğma ocağı olmasına ciddi səy və əmək sərf edən insanlardır. Valideynlər öz övladlarının gələcək xoşbəxtliyinin və maraqlarının qayğısına qalmaqla bərabər, həm də öz ailə ocaqlarını mümkün qədər sahmana salmağı, cəlbedici bir yerə çevirməyi xoşlayırlar.

Dissertasiyanın **"Ailə tərbiyəsinin müasir problemləri"** adlı II fəsli 2 yarımfəsildən ibarətdir. **"2.1. Ailə tərbiyəsinin sosial problemləri"** yarımfəslində qeyd olunur ki, bu gün ailə problemləri və uşaq şəxsiyyətinin formalaşdırılması cəmiyyət həyatı üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Ailə institutunda deformasiyaların baş verməsi, həqiqi milli dəyər kimi ailə modellərinin iflasa uğraması, "kiçik dövlət"də psixoloji durumun zəifləməsi, bütövlükdə sosial böhranın ailəyə təsiri dünya ölkələrində, xüsusilə inkişaf etmiş ölkələrdə ən çox müzakirə edilən məsələlərdən birinə çevrilmişdir.

Cəmiyyətin sosial-iqtisadi həyatında baş verən bütün dəyişikliklər öz təsirini ailədə əks etdirir. Lakin iqtisadi sahədə yeni münasibətlər daha sürətlə bərqərar olduğu halda, yeni əxlaq normaları ailədə daha asta tempdə özünə yer tapır. Bu, ailənin sosial qapalı qrup olmasından və mühavizəkar xarakter daşımasından irəli gəlir.

Sosial şəbəkələr dövrümüzün böyük texnoloji nailiyyəti olsa da, onun geniş kommunikativ imkanlarından sui-istifadə ailələrə fəlakət və bədbəxtliklər gətirir. Sosial şəbəkələrin yerli-yersiz istifadəsi "internet asılılığına" səbəb olur ki, bu da tərbiyə edənlərin və tərbiyə olunanların işlərində maneələr törədir.

Müasir Azərbaycan ailə tərbiyəsində heç də ürəkaçıcı olmayan aşağıdakı meyil və tendensiyalar da özünü göstərir:

1. Şəhərlərdə, qismən də olsa kənd və qəsəbələrdə bir və ya ikiuşaqlı ailə tipinin üstünlük təşkil etməsi;

2. Gənc ailələrin valideynlərdən [ümumən yaşlı nəsildən] ayrı yaşaması;

3. Xalq pedaqogikasından əsaslı surətdə məhrum olma;

4. Urbanizasiya şəraitində uşaqların yaşlı nəsillə, xüsusilə qohumluq əlaqələri olan yaşlı nəsillə ünsiyyətinin qurulmasına müəyyən sədlərin çəkilməsi;

5. Sosial və iqtisadi çətinliklər [ailənin öz maddi təminatını təmin etməsi üçün gecə– gündüz çalışması];

6. Serialların, videonun, kompyuterin, texnologiyaların inkişafının mənfi təsiri.

Ailə dəyərlərimizdə valideynin "öz boğazından kəsib" uşaqlarına vermək ənənələri illərdir ki, yaşayır, möhkəmlik qazanır. Bununla belə, iqtisadi cəhətdən daha yaxşı təmin olunmuş ailələrdə tənhalıq, depressiya, ünsiyyət üçün sosial şəbəkələrə hücum, yalançı dostlar, inamsızlıq, etibarsızlıq, hətta intihar halları daha çox baş verir.

Müasir ailənin xarakterik xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- Şəhər və kənd ailələrinin sosial ukladının müxtəlifliyi. Şəhərlərdə uşaqlar üzərindəki nəzarət kənd ailələrində böyüyən uşaqların üzərindəki nəzarətdən azdır, bəzi hallarda isə demək olar ki, yoxdur. Kənd ailələrində böyüyən uşaqlar öz üzərlərində qonşularının, həmkəndlilərinin ciddi nəzarətini hiss edirlər.

- Yüksək təminatlı ailələrin bir çoxunda lap kiçik yaşlardan uşaqlarda hər şeyə qarşı istehlakçı münasibət formalaşır. Bu tipli ailələrdə böyüyən uşaqlar maddi və mənəvi sərvətlərə qarşı etinasız olur.

- Valideynlərin təhsil səviyyəsi ilə uşaqların təlim göstəriciləri arasında birbaşa asılılıq mövcuddur. Təhsil səviyyəsi yüksək olan valideynlərin uşaqları məktəbdə, adətən daha müvəffəq qiymətlərlə oxuyurlar. Müasir valideynlər müəyyən işlərdə çalışdıqlarına görə, çox vaxt uşaqlar dayələrin, nənə və babanın himayəsində tərbiyə olunurlar. Bəzən belə hallarda uşaqların təhsil səviyyəsi zəif olur.

- Müasir ailələrin çoxu nuklear tipli olduğuna görə, belə ailələrdə valideynlər uşaqların tərbiyəsində, ailə problemlərinin həllində, uşaqların məktəbə və bağçaya aparılmasında çətinliklərlə qarşılaşırlar.

- Təkuşaqlı ailələrin sayının artması. Ailədə tək böyüyən uşaqlar bacı və qardaş himayəsindən məhrumdurlar. Belə ailələrdə valideynlərin bütün diqqətləri, qayğı və nəvazişi birinə yönəldiyindən belə uşaqlarda eqoizm, kollektivçilik hisslərinin olmaması özünü göstərir.

- Boşanma hallarının artması. Psixoloq və sosioloqların fikrincə, bütün hallarda boşanma uşağın psixikasına sarsıdıcı zərbə vurur.

Dissertasiyanın II fəslinin "**Ailə tərbiyəsinin pedaqoji problemləri**" adlı II yarımfəslində göstərilir ki, ailənin pedaqoji əsaslarını müəyyənləşdirmək bugünkü elmi axtarışların, praktik fəaliyyətin ümdə vəzifələrindən biridir.

Ailədə uşaqların kortəbii şəkildə tərbiyəsi qeyri-mümkündür. Valideynlərin bir qisminin pedaqoji məqsədləri çox vaxt aydın xarakter daşımır. Bu uşaqların ailə tərbiyəsi işinə böyük ziyan vurur.

Müasir ailə tərbiyəsinin pedaqoji problemlərindən biri uşaqlara valideyn sevgisinin düzgün nizamlanmamasıdır. Valideyn sevgisinin həddi və tərbiyə işində tətbiqi pedaqoji problemdir və ailə tərbiyəsinin müvəffəqiyyəti xeyli dərəcədə onun düzgün həllindən asılıdır.

Sevgidə valideyn məharəti ən xırdacıq məsələlərdə belə uşağa sevinc bəxş etməkdən ibarətdir. Uşağa sevgini valideynlər tərəddüd etmədən konkret hərəkətləri ilə göstərməyi bacarmalıdırlar.

Müasir dövrdə ailə tərbiyəsinin pedaqoji problemlərindən biri də uşaqların valideyn nəzarətindən kənarda müstəqil fəaliyyətlərinin məqsədəuyğun təşkilidir. Pedaqoji ədəbiyyatda qəbul edilmiş terminlərlə ifadəsi "asudə vaxt", "sərbəst vaxt" olan bu zaman kəsiyinin pedaqoji baxımdan düzgün təşkili məktəbin, müvafiq ictimai və dövlət qurumlarının, daha çox isə ailənin qarşısında duran problemdir.

Hər xalqın özünəməxsus tərbiyə sistemi mövcuddur. Tərbiyə prosesində əsas prinsiplərdən biri də nikbinlik prinsipidir. Belə ki, valideynlər öz övladlarını həmişə ruhlandırmalı, həvəsləndirməli, onlara güvənməlidirlər.

Ailə tərbiyəsinin mühüm pedaqoji problemlərindən biri də valideynlərdən hansının sözükeçərli olması, yəni ailə başçısı problemidir. Artıq sosium ailə münasibətlərinə hər iki tərəfin – ata ilə ananın birgə yeni yanaşması kimi baxır.

Müasir ailənin problemləri, onun dəyərlərindəki dəyişikliklər bu institutun üzvləri arasında münasibətlərin pozulmasına gətirib çıxarır. Bu hal xüsusilə monoqram və patriarxal ailələrdə daha çox müşahidə edilir. Ailədaxili ziddiyyətlər, risk və münaqişələr modernləşmə dövrünün açar anlayışlarıdır və bu gün ona insanın "yeni genetik" əlaqələri kimi baxılır. Lakin bununla belə, bu sindromu dağıtmaq, qırmaq mümkündür.

Dissertasiyanın "**Ailə tərbiyəsinin səmərəliliyini artırmağın yolları**" adlı III fəsli 3 yarımfəsildən ibarətdir. "**3.1. Ailə münasibətlərinin düzgün təşkili tərbiyənin səmərəlilik şərti kimi**" yarımfəslində struktur baxımından böyük və kiçik ailələrdə münasibətlər sisteminin tərbiyə işinə təsiri məsələlərindən danışılır.

Ailə münasibətlərinin əsasında ata-ananın ideya, əqidə birliyi durur. Onların həyat məqsədləri, əxlaqi dəyər və normalara bağlılığı, hissləri ailə münasibətlərinin əsasını təşkil edir ki, bu münasibətlərin məzmunu [müsbət və ya mənfi olmaqla] uşaq tərbiyəsinin xarakterini müəyyənləşdirir.

Ailədaxili münasibətlərin məzmunu, ailədə mənəvi–psixoloji iqlim uşaq şəxsiyyətinin formalaşmasına böyük təsir göstərir. Davranış normalarının mənimsənilməsi və valideynlərin münasibətləri uşaqların yaxınlarına və qohumlarına ünsiyyətinin yaranması və

inkişafına şərt olur. Əgər ailədə uşağın tərbiyəsi işində birlik yoxdursa, əgər uşağa münasibətdə hörmət və tələbkarlıq kimi çox mühüm pedaqoji prinsiplər pozulursa, onda insan [uşaq] xarakterinin düzgün qurulması üçün zəmin yaranmır. Uşaqlar valideynlərin tərbiyə üslubunun yetirməsidir, yəni uşaq ailə münasibətlərinin indikatorudur.

Ailə münasibətlərini düzgün qurmağı bacarmaq, ailədə sakitliyin, rahatlığın xeyirxahlığın əsasını təşkil edir. Valideynlər bilməlidirlər ki, ailədə sakitlik, xeyirxah mühit yaradılmalıdır. Uşaqlara isti, mehriban münasibət göstərməlidir. Onları sevmək vacibdir, lakin gərəksiz zahiri məhəbbətdən, uşağa hədsiz sevgi "izahırından"çəkinmək lazımdır. Valideyn uşağın dostuna çevrilməyi bacarmalıdır. Uşaqların bəzi hərəkətlərinin tənqidi zamanı onların təhqir olunması, hörmətdən salınması yolverilməzdir və s.

Ailədə uşaqların tərbiyəsində istifadə olunacaq pedaqoji təsir vasitələri kimi inandırma, alışdırma, həvəsləndirmə [tətbiq etmə, rəğbətləndirmə], tənbeh etmə [cazalandırma] kimi ümumi formalardan daha çox istifadə olunması məsləhət görülür. Konkret şəraitdən asılı olaraq hər hansı bir tərbiyə vasitəsi yaxşı təsir göstərə bilər.

Həqiqətən də, müsbət adət-ənənələrə malik patriarxal ailələrdə möhkəm, sabit ailə münasibətləri və buna uyğun olaraq övlad tərbiyəsi çox hallarda uğurla nəticələnir. Patriarxal ailə münasibətlərinin tərbiyəyə təsiri professor Ə.Əlizadə və professor A.Abbasov tərəfindən belə dəyərləndirilir: *"Vaxtı ilə mürəkkəb ailə daha geniş yayılmışdır. Keçmiş zamanlarda belə ailəyə patriarxal ailə deyilirdi.... Mürəkkəb ailədə on-on iki, hətta bəzən daha çox uşaq olurdu... Bu ailədə hərənin-babanın, nənənin, atanın, ananın, böyük qardaşın, kiçik bacının öz yeri var idi:ailənin bütün həyatı bərqərar olmuş adət və ənənələrlə idarə olunurdu. Bu ailə həm "klub" və "məktəb", həm də "doğum evi" idi, "poliklinika" və ya "aptek", həm də özünəməxsus xarakter daşıyan "məhkəmə" idi".*[4]

Ailədə uşaq şəxsiyyətinin formalaşdırılması məqsədilə valideyn-övlad münasibətlərində, onların qarşılıqlı əlaqələrində neqativ halların aradan qaldırılmasının vacibliyi günümüzün reallığı, əsas tələbidir. Valideynlərin müəyyən pedaqoji bilk və bacarıqlara

---

[4] Əlizadə Ə.Ə. Abbasov A.N. Ailə/IX siniflər üçün dərslik. Bakı: Maarif, 1989, s.116-117

yiyələnməsi problemin həlli yolunda etibarlı amil ola bilər.

"**3.2. Ailə tərbiyəsinin təşkilində xalq pedaqogikasının imkanlarından istifadə**" yarımfəslində qeyd olunur ki, hələ elmi pedaqogikanın təşəkkül tapmadığı bir dövrdə ailə öz üzvlərinin tərbiyəsi işində müəyyən formalaşma prosesi keçirmişdir.

Etnopedaqoji yanaşma pedaqoji prosesə təbii-tarixi proses kimi baxır. Hər şeydən əvvəl etnopedaqogika öz qarşısına praktikada ən yaxşı tərbiyə metodlarının öyrənilməsini və istifadə olunmasını qoyur ki, bu da tərbiyənin üsul, vasitə və priyomlarının zənginləşməsinə, səmərəlilik səviyyəsinin yüksəldilməsinə əsaslı şəkildə təsir edir.

Xalqımızın zəngin və qədim etnopedaqoji sistemində ailə münasibətləri, xüsusilə uşaqların tərbiyəsi xüsusi yer tutur. Azərbaycan xalqının əsl mənəvi xəzinəsi olan folklor nümunələri – atalar sözləri və məsəllər, laylalar, bayatılar, nəğmələr, nağıllar, tapmacalar, yanıltmaclar böyüyən nəslin yüksək əxlaqi keyfiyyətlərlə formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Ailə tərbiyəsi işində etnopedaqoji materiallardan, xalq pedaqogikası ənənələrindən istifadə bütün hallarda ümumi tərbiyə məqsədlərinə çatmağa səbəb olur. Həmin materiallardan müəyyən pedaqoji şərtlər gözlənilməklə istifadə edildikdə ailə tərbiyəsi daha müvəffəqiyyətlə nəticələnir.

Azərbaycan atalar sözlərində ailə tərbiyəsi ilə bağlı çoxlu nümunələr vardır. Bu nümunələrdə ailə institutunun məzmun xüsusiyyətləri, ailədaxili münasibətlər, valideyn kimi hər iki tərəfin- kişinin və qadının övladların yetişdirilməsi işində məsuliyyəti və rolu, qadın-ananın övladcanlı olması, sədaqəti, namus və şərəfi, etibarı, ailə məişətini səhmana salmaq, təsərrüfatı idarə edə bilmək qabiliyyəti haqqında etnik düşüncənin verdiyi imkanlar daxilində bəhs olunur. Ailədə uşaq tərbiyəsi atalar sözlərində çox parlaq şəkildə, yüksək pedaqoji mahiyyətdə ifadə olunmuşdur. "Oğlum əzizdir, tərbiyəsi ondan əziz" atalar sözünün ifadə etdiyi yüksək pedaqoji mənanı, tərbiyə məzmununu bu səviyyədə ifadə edə bilmək məhz Azərbaycan xalqının yaratdığı folklor nümunələrinə xas keyfiyyətdir.

Atalar sözləri və məsəllərdən uşaqların əxlaq, əmək, əqli estetik və fiziki tərbiyəsində geniş şəkildə istifadə etmək mümkündür. Atalar sözləri ailə təsərrüfatının, məişətinin bütün sahələrini əhatə edir

ki, onun belə bir imkan və yollarından, üsul və vasitələrdən uşaqların tərbiyəsində istifadə edilməsi yüksək fayda verir.

Atalar sözləri uşaqlara yüksək əxlaqi keyfiyyətlər aşılamaq sahəsində əvəzsiz miniatür didaktik materiallardır. Məsələn, “Vətənə gəldim, imana gəldim”, “Vətənin bir qışı qürbətin min baharından yaxşıdır”, “Atasını atan elini də atar” və s.

Tapmacalar ailədə uşaqların əqli nəticələrə marağının artırılması, müstəqil düşünməsi işində olduqca populyar bir etnopedaqoji materaldır. Tapmacalardan xalqımız hələ qədim zamanlardan didaktik və tərbiyəvi vasitə kimi istifadə etmişlər. Professor Əliheydər Həşimov tapmacaları “ağlın gimnastikası” adlandırmışdır.

Xalq nağıllarında müəyyən pedaqoji anlayışlar, nəticələr, mühakimə və düşüncələr, həyat haqqında fikirlər var. Nağıllar uşaqlarda yaxşı hisslər oyadır, onları eqoizmdən, sərtlik və mərhəmətsizlikdən çəkindirir. Nağıllar uşaqları həmişə xeyir işlərə səsləyir, şərə qarşı mübariz olmağa çağırır.

Ailə hər hansı bir milli tərbiyə sisteminin nüvəsidir. Məhz ailə etnopedaqogikasında mənəvi dəyərlər, ilk əvvəl xalqın ideya – mənəvi zənginliyi, onun xeyirxahlıq və gözəllik idealı, estetik baxışları özünün bütün mahiyyəti və möhtəşəmliyi ilə əks olunur.

Ailə tərbiyəsinin sistemi uzun əsrlər boyu formalaşma prosesi keçmişdir. Bu tərbiyə sistemi özündə xalqın uşağı həyata hazırlamaq məqsədi ilə topladığı bilik, bacarıq və vasitələri birləşdirir. Ona görə də müasir şəraitdə ailə pedaqogikası üzrə toplanmış irs, tarixi təcrübə böyük əhəmiyyət kəsb edir. Ailənin praktikada yoxlanılmış tərbiyə imkanlarından istifadə olunması, bugünkü şəraitdə uşağın təlimi, tərbiyəsi və inkişafı üçün olduqca səmərəli və faydalı üsullar, vasitələr, yollar məcmusudur.

Hazırki şəraitdə Azərbaycan ailəsində praktik olaraq arzuolunmaz vəziyyətlər yaranır. Son illərin statistikasına əsaslansaq əhalinin mentalitetində dəyişikliklərin yaranması, bu sahədə tendensiyanın açıq şəkildə güclənməsi müşahidə olunur. Bu cəhət özünü ailə dəyərlərində, ailə münasibətlərində də büruzə verir. Bəzi ailələr özünün sosial-mədəni və maddi vəziyyəti üzrə məsuliyyətini sanki unudur, ailə daxili sistem-də hüquqi və əmək bölgüsü dəyişir.

Qeyd etməliyik ki, bu gün valideynlərin bir çoxu yeni sosial – mədəni şəraitdə uşaqların tərbiyəsi istiqaməti üzrə “çağırışlara” tam hazır deyillər. Belə bir şərait valideynlərin qarşısında yeni vəzifələr– uşaqlarda praktiklik, müstəqillik, təşəbbüskarlıq, qənaətçilik və s. bu kimi keyfiyyətlər formalaşdırmaq tələbi qoyur. Bu göstərdiyimiz vəzifələr Azərbaycan türklərinin ən qədim ailə ənənələrində bu və ya digər şəkildə əks olunmuşdur. Ona görə də müasir ailə tərbiyəsi sistemində etnopedaqogikanın imkanlarından istifadə olunması vacibdir.

“**3.3. Valideyn nüfuzu və nümunənin ailə tərbiyəsinin səmərəliliyinə təsiri**” yarımfəslində göstərilir ki, valideyn uşağın həyatında, onun ictimai aləmə, cəmiyyətə qoşulmasında mühüm rol oynayır. Valideynin şəxsi keyfiyyətləri ailədə uşağın həyatına çox güclü təsir göstərən bir vasitədir.

Valideyn avtoriteti [nüfuzu] və nümunəsi sosial varisliyin mühüm mexanizmi kimi yaşlı nəslin yetişən nəslə mənəvi–əxlaqi təcrübəsinin ötürülməsidir. Valideyn nümunəsi sosial təcrübənin spesifik formasıdır. Ata və ana uşağın gözündə bu avtoriteti qoruyub saxlamalıdır.

Valideyn nüfuzunun başlıca əsası yalnız valideynin həyat tərzi və işi deyil, onun vətəndaşlıq keyfiyyəti, ailədə və ictimai yerlərdə davranış və hərəkətləri ola bilər.

Ailədə uşağın yüksək mənəvi– əxlaqi tərbiyəsi üçün ata və ananın nümunəsi uşaq üçün avtoritet olmalıdır. Valideynin həqiqi nüfuzu o zaman yaranır ki, o həm də siyasi və vətəndaşlıq keyfiyyətlərinə malik olsun.

Beləliklə, valideyn nümunəsi və nüfuzu sosial təcrübənin spesifik forması kimi yetişən nəslin yaşlıların mənəvi təcrübəsini mənimsəməsi prosesi olmaqla çox vacib funksiyanı yerinə yetirir.

Pedaqoji ədəbiyyatda valideynin yalançı nüfuzunun aşağıda göstərilən bir neçə növündən bəhs olunur:

Susdurulmaya əsaslanan avtoritet. Avtoritetin bu növü çox dərəcə qorxulu, təhlükəlidir. Belə ata, həmçinin ana avtoriteti bütün ailədə qorxu, vahimə, dəhşət yaradır. Bu növ avtoritet sahibi valideynlər uşaqların da yalan danışmasına, qaba hərəkətlər etməsinə həmçinin qorxaq və müti böyüməsinə şərait yaradır.

Lovğalığa əsaslanan avtoritet. Bu, avtoritetin xüsusi zərərli növüdür. Əksər zamanlarda bu nüfuz sahibi olan valideynlər uşaqların tərbiyəsi işində məğlubiyyətə uğrayırlar.

Pedantlığa əsaslanan valideyn avtoriteti. Avtoritetin bu növündən istifadə edən valideynlər belə hesab edirlər ki, uşaqlar valideynlərin dediklərini titrəməklə, həyəcanla dinləməli, onların sözlərinə, əmrlərinə qanun kimi əməl etməli, hətta müqəddəs tutmalıdırlar.

Nəsihətçiliyi əsas götürən avtoritet növü. Bu növ avtoritet sahibi olan valideynlər uşaqlara "dərs vermək", ibrətamiz söhbətlər aparmaq, nəsihətçiliyə aludə olmaqla fərqlənirlər. Onlar unudurlar ki, uşaqların öz həyatı, öz maraqları var və bunlara hörmətlə yanaşmaq, düzgün münasibət göstərmək lazımdır.

Sevgiyə, məhəbbətə əsaslanan avtoritet. Bəzi valideynlər inanır ki, valideyn hər bir addımda uşağa məhəbbətini göstərməlidir. Əksər hallarda isə uşaqlarda valideynlərinə simpatiya və gözəl hisslər yaranır, başqalarına isə yadlıq, ögeyli münasibətləri formalaşır ki, bu da eqoizmin meydana gəlməsinə səbəb olur.

Əsasında xeyirxahlıq duran avtoritet. Ədəbiyyatlarda avtoritetin bu növü ən ağılsız, fərasətsiz növ kimi qiymətləndirilir. Valideynin xeyirxahlığı, həlimliyi, rəhimdil olması, ürək yumşaqlığı, həddini aşan güzəştlərə keçməsi avtoritetin bu növünün səciyyəvi xüsusiyyətlərindəndir.

Dostluq əsasında qurulan avtoritet. Ata və oğul, ana və qız biri – biri ilə dostluq etməli, bununla belə valideynlər ailə kollektivinin böyük üzvləri, uşaqlar isə tərbiyə olunanlar kimi qalmalıdırlar. Əgər dostluq müəyyən olunmuş sərhədləri aşarsa, onda tərbiyə işi dayandırılır, yaxud əks proseslər gedir, artıq uşaqlar valideynləri "tərbiyə etməyə" başlayırlar.

Qeyd-şərtsiz, valideyn işinin layiqincə həyata keçirilməsi prosesində avtoritet ilk özül, bünövrədir. Bu özülü doğru məcraya, müsbət məzmun istiqamətinə yönləndirmək üçün valideynlərin yüksək pedaqoji mədəniyyətə, uşaq tərbiyəsi işində pedaqogikanın müasir elmi nailiyyətlərini əks etdirən bilik və bacarıqlara yiyələnməsi vacibdir.

Valideyn nümunəsi hamının qəbul etdiyi əhəmiyyətə və

mahiyyətə malik olmaqla təsirli tərbiyə amili və pedaqoji takt kimi hərəkət qaydaları, fəaliyyət üsuludur.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatın yekunları ümumiləşdirilərək göstərilir ki, ailə vətəndaş tərbiyə edir, vətənpərvərlər yetişdirməyə xidmət edir, gələcək ailələri yarada və qoruya biləcək insanlar hazırlayır, onları dövlətin, ölkənin qanunlarına, adət-ənənələrinə hörmət etməyə alışdırır.

Ailənin pedaqoji mahiyyəti onun pedaqoji sistem halında təşkilinə əsaslanır. Bu sistemdə ilk növbədə "valideyn-övlad", sonra "uşaq-məzmun ","uşaq-vasitə", "valideyn-məzmun [təminat]", "valideyn-vasitə", "uşaq-uşaq" elementləri dayanır ki, müvəffəiyyətli ailə tərbiyəsi üçün "valideyn-övlad" alt sistemi daha əhəmiyyətlidir.

Müasir dövrdə ənənəvi ailə funksiyalarının əhəmiyyətlilik səviyyələrində müəyyən dəyişmələr özünü göstərir. Məsələn, ailənin reproduktiv funksiyasının, ilkin sosial nəzarət funksiyasının xüsusi çəkisi daha çox azalmağa, əvəzində iqtisadi funksiya, ekzistensial funksiya isə artmağa meyillidir.

Cəmiyyətlərin ictimai inkişafının oxşarlığının artması, mədəniyyətlərin yaxınlaşması, əksər sahələrdə qloballaşma ailə təsisatının da bir sıra sosial problemərini yaratmışdır. Ailə tərbiyəsinin səmərəli təşkilində onların nəzərə alınması zəruridir.

Ailənin qarşılaşdığı sosial problemlər ailə tərbiyəsində çətinliklər yaradan çoxlu sayda pedaqoji problemlərin meydana çıxmasına birbaşa təsir göstərir. Ailələrin qarşılaşdığı iqtisadi çətinliklər, müxtəlif demoqrafik problemlər, urbanzasiya, müharibə şəraitinin aradan qaldırılmaması, uşaqlar üzərində sosial nəzarətin nisbətən zəifləməsi, elmi texniki tərəqqinin ailə tərbiyəsinə təsiri üzərində nəzarət mexanizminin tam işlənməməsi müasir ailə tərbiyəsinin pedaqoji problərini də şərtləndirir. Bununla yanaşı, müasir ailə tərbiyəsinin özünəməxsus sırf pedaqoji problemləri də vardır. Buraya valideynlərin pedaqoji mədəniyyətinin lazımi səviyyədə olmaması, uşaqlara valideyn sevgisinin düzgün nizamlanmaması, uşaqların valideyn nəzarətindən kənarda müstəqil fəaliyyətinin və asudə vaxtlarının pedaqoji baxımdan qeyri-düzgün təşkili, ailədə uşaqlara hörmət və tələbkarlıq arasında pedaqoji uyğunluğun nizamlanmaması, valideyn nüfuzu və nümunəsinin düzgün istiqamətləndirilməməsi kimi

məsələlər aiddir.

Ailə tərbiyəsinin səmərəliliyini artırmağın yollarından biri ailədaxili münasibətlərin düzgün təşkil edilməsidir. Ailə münasibətlərinin səmərəliliyinə ailə üzvlərinin say tərkibi, ailə başçısı probleminin düzgün həlli, ailədə böyük-kiçik münasibətlərində səmimilik və s. bu kimi məsələlər təsir edir.

Ailə tərbiyəsi işində etnopedaqoji materiallardan, xalq pedaqogikası ənənələrindən istifadə bütün hallarda ümumi tərbiyə məqsədlərinə çatmağa səbəb olur. Həmin materiallardan müəyyən pedaqoji şərtlər gözlənilməklə istifadə edildikdə isə ailə tərbiyəsi müvəffəqiyyətlə nəticələnir.

Müasir şərait ailədə valideyn nümunəsinin təşkili problemini daha ciddiyyətlə diqqətə çəkir. Çağdaş dünyamızın çox güclü informasiya axını, iqtisadi şəraitin yaxşılaşması ailələrdə bir çox neqativ halların yaranmasına, ailə münasibətlərinin pozulmasına gətirib çıxarır. Ailə münasibətlərində pozitiv əlaqə və münasibətlərin yaranmasında valideyn nüfuzu [hakimi – mütləqliyini yox], valideyn nümunəsi xüsusi əhəmiyyətə malikdir. Lakin bu nüfuz və nümunə yüksək pedaqoji əsaslara söykənməlidir. Valideynin nümunəsi, onun rəhbərlik üslubu, pedaqoji mədəniyyəti çox zəngin məzmuna və mahiyyətə malik pedaqoji hadisədir.

**Dissertasiyanın əsas məzmunu və nəticələri müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Məktəblə ailənin əlaqə formaları və onların uşaqların tərbiyəsi işində əhəmiyyəti //Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2007 №3 (11), s. 30-33
2. Mirzə Ələkbər Sabir yaradıcılığında təhsil-tərbiyə məsələləri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb,2010, № 4 (24), s. 24-26
3. Məmməd Araz yaradıcılığında vətənpərvərlik tərbiyəsi məsələləri / "Müasir təlim metodları və yeni pedaqoji texnikaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusuna həsr edilmiş elmi-praktik konfrans. NMİ, 2011, s. 54-57
4. Uşaqların ailədə əmək tərbiyəsi//Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2012, Cild 8,№2, s.13-15

5. Ailədə milli adət-ənənələrlə tərbiyə / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. Bakı- 2013, II cild, s. 330-331
6. Uşaqların tərbiyəsində valideyin məsuliyyəti haqqında / "Müasir təlim metodları və yeni pedaqoji texnikaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusuna həsr edilmiş elmi-praktik konfrans. NMİ, 2014, səh 89-90
7. Uşaqların tərbiyəsi işində ailənin rolu // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri.Naxçıvan: Məktəb, 2014, Cild 10, № 3, s. 44-46
8. "Kitabi-Dədə Qorqud" dastanında ailə məsələləri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2015, cild 11, №4, s. 16-18
9. Ailə tərbiyəsi: yaranması və inkişaf mərhələləri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2016, №6 (74), s. 103-105
10. Valideyin nümunəsinin ailə tərbiyəsinin səmərəliliyinə təsiri / «Azərbaycanda təhsil siyasətinin prioritetləri:Müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans. Naxçıvan şəhəri, 25 noyabr 2016, s. 88-89
11. Ailədə uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması məsələləri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2017, Cild 13,№2, s. 25-29
12. Azərbaycan mütəffəkkiri N.Tusinin ailə-övlad münasibətləri haqqında fikirləri / "Müasir təlim metodları və yeni pedaqoji texnikaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusuna həsr edilmiş elmi-praktik konfrans. NMİ, 2017, s. 106-108
13. Pedagogical problems of family education // The scientific metod. Warshawa, p Poland, 2017, №10, s. 45-49
14. Azərbaycan nağıllarının uşaqların tərbiyəsinə təsiri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2017, Cild 13, №4, s. 96-98
15. Əvhədi Marağalının "Cami-Cəm" poemasında övlad tərbiyəsi məsələləri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. Bakı, 2018, Cild 85, №1, s.156-158

16. О возможности для педагогики семейства для обучения семъи// ISCIENCE Актуальные научные исследования в современном мире.5 Октябрь 2018 г. Выпуск 10(42) ч. 33-35
17. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə // "Ümumtəhsildə kurrikulum islahatları, nəticələr, reallıqlar və perspektivlər" mövzusuna həsr edilmiş elmi-praktik konfrans. NMİ, 05-06 aprel 2019, s.67-68
18. Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vətənpərvərlik tərbiyəsi // "Elmi iş" (humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal) 2019, №3(4), s.42-43
19. Uşaqların ailədə estetik tərbiyəsinin əhəmiyyəti və təşkili // Al-Farabi 5 Beynəlxalq Sosial Elmər konfransı. Bakı, Azerbaycan 2019, s.197-200
20. Azərbaycan ailəsinin mənəvi xüsusiyyətləri // 3.Uluslararası Nevruz Kültür və Medeniyyet Kongresi, Bakü, Azerbaycan. 18-22 Mart 2020, s.100-101.
21. Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsində məktəbin rolu // Al-Farabi 7 Uluslararası Sosial bilimler konqresi. Bursa. Türkiye. 1-2 mays 2020, s.267-269

Dissertasiyanın müdafiəsi 29 _may_ _2021-ci il tarixində saat _11$^{00}$ da__ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri. Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu. Akt zalı.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 aprel 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.04.2021
Kağız formatı: 60x84 16\1
Həcm: 38636
Tiraj: 100